QURANİ-KƏRİMDƏ İMAMƏT VƏ CANİŞİNLİK

KİTAB HAQQINDA

KITABıN ADı: "Quranı-Kərımdə ımamət və canışınlık"

MüəLLIF: Ayətullah əl-üzma Nasır Məkarım Şırazı

TəRCüMə EDəN: R. Şükürbəylı

Redaktorlar: E. Rəhımlı, M. Əlızadə

KompYUTERDə YığAN: V. Əsədov

NAŞIR: Beynəlxalq əl-Mustəfa (s) Akademıyası

ÇAP NöVBəSI: Bırıncı

TARIX: 2009

TIRAJ: 2000

ISBN: 978-964-195-027-1

ÌNVAN:

İran, Qum, Bahar prospektı, Beynəlxalq əl-Mustəfa (s) Akademıyasının nəşrıyyatı. Telfax: 0098 251 7749875

İran, Qum, Mühəmməd Əmın prospektı, Elmlər Akademıyasının nəzdı, Beynəlxalq əl-Mustəfa (s) Akademıyasının nəşrıyyatı.

Telfax: 0098 251 2133104

ÇÇÇ.MIUP.IR , ÇÇÇ.ESHOP.MIUP.IR

E-MAIL: ADMIN@MIUP.IR, ROOT@MIUP.IR

səh:1

İŞARƏ

بسم الله الرحمن الرحيم

RƏHMAN VƏ RƏHİM ALLAHIN ADI İLƏ

səh:2

QURANİ-KƏRİMDƏ

İMAMƏT VƏ CANİŞİNLİK

Müəllıf: Ayətullah əl-üzma Nasır Məkarım ŞırazışDU1ü [۱]

Tərcümə edən: Rza ŞükürbəylışDU2ü[۲]

_____

şDU1ü ş3üşDU2ü[۴]

səh:3

TƏDQIQAT şöBƏSI

səh:4

NAŞİRDƏN

NAĞİRDƏNşDU1ü[۱]

İslam tarıxında “ımamət”, “canışınlık” və “ımamşünaslıq” elə ılkın dövrdən tutmuş ındıkı zamanımıza qədər ən əhəmıyyətlı məsələlərdən bırı kımı, həmışə dıqqət mərkəzındə olmuşdur. Bəlkə də elə bır mövzu tapılmaz kı, onun sımasının təsvırındəkı qədər ona qələm, mürəkkəb sərf edılsın. İslam mənbələrındə müsəlmanların rəhbərlıyı ılə əlaqədar nəql olunan hədıs və rəvayətlərın sayı olduqca çox və bütün cəhətləri belə dolғun ışıqlandırılmışdır. Hətta ən mötəbər və səhıh kıtablarda dəfələrlə adı çəkılən “səqələyn” və “səfınə” kımı bırbaşa canışınlıyı təyın edən hədıslərın sayı az deyıldır.

Məsum ımamların buyuruqlarından əlavə, hələ Quranın ona ayrılan xass ayələrı bu məsələnın əhəmıyyətını bır daha artırır. Məsələn, Quranı-Kərımdə ümumı ımamət və vılayətlə əlaqədar dıqqətı xüsusı cəlb edən “ulul-əmr” və “sadıqın”, xüsusı ımamət və vılayətlə əlaqədar ısə “leylətül-məbıt” və “xeyrul-bərıyyə” kımı ayələr müşahıdə olunur kı, sünnü və şıələrın təfsır kıtablarında onlara genış şərhlər verılmış və burada məsum ımamlar rəhbərlıyın kamıl nümunələrı kımı qeyd edılmışdır.

Təfsır üslubu baxımından yazılan kıtablar arasında hər hansı bır mövzu üzərındə aparılan xüsusı təfsır forması ısə bır mövzuya aıd ayələrın toplanması, çoxşaxəlı mövzuların araşdırılması, dərın mənalı ayələrın düzgün ızahı və s. spesıfık xüsusıyyətlərı ılə fərqlənır. Elə bu kıtab da həmın üslubda yazılan A. N. M. Şırazının dəyərlı əsərlərındən

_____

şDU1ü[۲]

səh:5

bırıdır və “Quranı-Kərımdə ımamət və canışınlık” adı ılə Beynəlxalq əl-Mustəfa (s) Akademıyasının tədqıqatçı məzunlarından sayılan R. Şükürbəylı namızədlık elmı dərəcəsı almaq üçün azərı türkcəsınə tərcümə etmış və BMA tərəfındən ən üstün elmı ış kımı tanınmışdır.

Yerı gəlmışkən, bu dəyərlı əsərın tərcüməsının ərsəyə çatdırılmasında zəhmət çəkən bütün elm əhlınə xüsusı mınnətdarlığımızı bıldırırık!

Beynəlxalq əl-Mustəfa (s) Akademıyası

Tədqıqat şöbəsı

səh:6

MÜNDƏRİCAT

MÌNDƏRİCAT

NAŞİRDƏN.. 5[۱]

MÜNDƏRİCAT.. 7[۲]

ÖN SÖZ.. 11[۳]

İMAMƏT, YAXUD CANİŞİNLİK NƏDİR?. 12[۴]

İMAMƏT ÜSULİ-DİNDƏNDİR, YOXSA FÜRUİ-DİNDƏN?. 14[۵]

İMAMƏT BƏHSLƏRİ NƏ VAXTDAN BAŞLANDI?. 15 [۶]

QURAN VƏ LÜĞƏTDƏ “İMAM” SÖZÜ.. 17[۷]

QURANİ-KƏRİMDƏ İMAMƏT MƏQAMI 19[۸]

İMAMIN VÜCUDUNUN FƏLSƏFƏSİ (SƏBƏBİ) 25[۹]

I. ş10üQURANİ-KƏRİMDƏ.. 31[۱۱]

ÜMUMİ İMAMƏT VƏ VİLAYƏT[۱۲]۳۱

“İNZAR VƏ HİDAYƏT” AYƏSİ 32[۱۳]

“SADİQİN” (DOĞRUÇULAR) AYƏSİ 36[۱۴]

“ULİL-ƏMR” (ƏMR SAHİBLƏRİ) AYƏSİ 40[۱۵]

II. ş16üRƏVAYƏTLƏRDƏ.. 47[۱۷]

ÜMUMİ İMAMƏT VƏ VİLAYƏT[۱۸]۴۷

”-۱SƏQƏLEYN” HƏDİSİ 47[۱۹]

“SƏQƏLEYN” HƏDİSİ PEYĞƏMBƏRİ-ƏKRƏM (S)-İN DİLİNDƏ TƏKRARLANIR[۲۰]۵۷

“SƏQƏLEYN” HƏDİSİNDƏN BAŞA DÜŞÜLƏN MÜHÜM İNCƏLİKLƏR[۲۱]۵۹

YALNIZ BİR SUAL.. 60[۲۲]

”-۲SƏFİNƏ” (GƏMİ) HƏDİSİ 62[۲۳]

“SƏFİNƏ” HƏDİSİ NƏ DEMƏK İSTƏYİR?. 64[۲۴]

”-۳NÜCUM″ (ULDUZLAR) HƏDİSİ 66[۲۵]

“NÜCUM″ HƏDİSİNİN MÖHTƏVASI 68[۲۶]

SUAL.. 71[۲۷]

”-۴ON İKİ İMAM″ HƏDİSİ 73[۲۸]

“ON İKİ İMAM″ HƏDİSİNİN MÖHTƏVASI 75[۲۹]

BİR İNCƏLİK.. 79[۳۰]

YER ÜZÜ İLAHİ HÖCCƏTDƏN BOŞ QALMAZ.. 79[۳۱]

İLAHİ HÖCCƏTİN ZƏRURİLİYİNƏ AİD QURAN AYƏLƏRİ VƏ MƏNTİQLİ DƏLİLLƏR[۳۲]۸۱

III. ş33üİMAMA XAS OLAN SİFƏT VƏ ŞƏRTLƏR۸۵

[۳۴]

İMAMIN ELMİ 86[۳۵]

İMAMLARIN ELMİ MƏNBƏLƏRİ 91[۳۶]

İMAMLARIN MƏSUM VƏ GÜNAHSIZ OLMASI 103[۳۷]

ƏHLİ-BEYT KİMLƏRDİR?. 106[۳۸]

BİR NEÇƏ SUALA CAVAB.. 111[۳۹]

“İSMƏT” MƏSƏLƏSİLƏ BAĞLI İRADLAR.. 116[۴۰]

İMAMLARA XAS XÜSUSİYYƏTLƏR.. 118[۴۱]

İMAM ALLAH TƏRƏFİNDƏN TƏYİN OLUNUR.. 119 [۴۲]

IV. ş43üPEYĞƏMBƏR VƏ İMAMLARIN “TƏKVİNİ” VİLAYƏTİ[۴۴] ۱۲۱

HƏDİSLƏRDƏ “TƏKVİNİ VİLAYƏT”. 128[۴۵]

V. ş46üXÜSUSİ İMAMƏT VƏ VİLAYƏT[۴۷] ۱۳۳

”-۱TƏBLİĞ” AYƏSİ 134[۴۸]

AYƏNİN NAZİL OLMA SƏBƏBİ 135[۴۹]

“QƏDİR-XUM” HADİSƏSİ 136[۵۰]

“QƏDİR-XUM” RƏVAYƏTLƏRİNƏ BİR BAXIŞ. 137[۵۱]

“TƏBLİĞ” AYƏSİ ÜZƏRİNDƏ YENİ BİR TƏHLİL.. 141 [۵۲]

ŞƏRHLƏR.. 143[۵۳]

”-۲VİLAYƏT″ AYƏSİ 150[۵۴]

AYƏNİN NAZİL OLMA SƏBƏBİ 150[۵۵]

“VİLAYƏT″ AYƏSİNİN XİLAFƏTƏ DƏLALƏTİ 153[۵۶]

İRADLAR VƏ BƏHANƏLƏR.. 154[۵۷]

”-۳ULİL-ƏMR″ AYƏSİ 160[۵۸]

”-۴SADİQİN″ (SADİQ OLANLAR) AYƏSİ 163[۵۹]

”-۵QURBA″ AYƏSİ 165[۶۰]

RƏVAYƏTLƏRDƏ “QURBA″ AYƏSİ 169[۶۱]

FƏZİLƏT AYƏLƏRİ 175[۶۲]

”-۱MÜBAHİLƏ” AYƏSİ 175[۶۳]

“MÜBAHİLƏ” AYƏSİNİN MÖHTƏVASI 176[۶۴]

“MÜBAHİLƏ” HƏDİS ALİMLƏRİNİN KƏLAMLARINDA.. 178[۶۵]

“MÜBAHİLƏ”NİN ƏHƏMİYYƏTİ 182[۶۶]

“MÜBAHİLƏ” AYƏSİ VƏ İRADLAR.. 185[۶۷]

”-۲XEYRUL-BƏRİYYƏ” (YARADILMIŞLARIN ƏN YAXŞISI) AYƏSİ 189[۶۸]

”-۳LEYLƏTÜL-MƏBİT″ AYƏSİ 192[۶۹]

”-۴HİKMƏT″ AYƏSİ 196[۷۰]

”-۵HƏL-ƏTA″ (İNSAN) SURƏSİ 198[۷۱]

“HƏL-ƏTA″ SURƏSİ ŞER ƏDƏBİYYATINDA.. 202[۷۲]

“HƏL-ƏTA″ SURƏSİ VƏ İRADLAR.. 203[۷۳]

”-۶BƏRAƏT″ AYƏLƏRİ 207[۷۴]

NƏTİCƏ.. 210[۷۵]

”-۷SİQAYƏTÜL-HACC″ (HACILARA SU VERMƏ) AYƏSİ 212[۷۶]

”-۸SALİHUL-MUMİNİN″ (MÖMİNLƏRİN ƏMƏLİSALEHİ) AYƏSİ 214[۷۷]

”-۹VƏZİRLİK″ AYƏSİ 216[۷۸]

“VƏZİRLİK” AYƏSİ VƏ HƏDİSLƏRİNİN MÖHTƏVASI 218[۷۹]

”-۱۱-۱۰ƏHZAB” SURƏSİNİN AYƏLƏRİ 219[۸۰]

”-۱۲BƏYYİNƏ” (ŞAHİD) AYƏSİ 222[۸۱]

”-۱۳SİDDİQUN” (SADİQLƏR) AYƏSİ 226[۸۲]

”-۱۴NUR” AYƏSİ 228[۸۳]

”-۱۵İNZAR” AYƏSİ 230[۸۴]

”-۱۶MƏRƏCƏL-BƏHREYN” AYƏSİ 234[۸۵]

”-۱۷NƏCVA” (PIÇILTI) AYƏSİ 236[۸۶]

”-۱۸SABİQUN” (ÖNDƏ OLANLAR) AYƏSİ 242[۸۷]

”-۱۹UZUNUN-VAİYƏ” (EŞİDİB YADDA SAXLAYAN QULAQ) AYƏSİ 253[۸۸]

”-۲۰MƏVƏDDƏT” (MƏHƏBBƏT) AYƏSİ 255[۸۹]

”-۲۱MÜNAFİQUN” (MÜNAFİQLƏR) AYƏSİ 257[۹۰]

”-۲۲İYZA” (ƏZİYYƏT) AYƏSİ 260[۹۱]

”-۲۳İNFAQ” AYƏSİ 262[۹۲]

”-۲۴MƏHƏBBƏT″ AYƏSİ 264[۹۳]

”-۲۵MƏSULUN″ (SORĞU-SUALA TUTULANLAR) AYƏSİ 270[۹۴]

VI. ş95üON İKİ İMAM... 275[۹۶]

”-۱SALAVAT″ AYƏSİ 278[۹۷]

”-۲NUR″ VƏ ″BÜYUT″ (EVLƏR) AYƏSİ 284[۹۸]

”-۳SİRATİ-MÜSTƏQİM″ (DOĞRU YOL) AYƏSİ 286[۹۹]

-۴ADƏM PEYĞƏMBƏRİN TÖVBƏSİ 288[۱۰۰]

-۵ƏN YAXŞI ƏMƏL.. 291[۱۰۱]

HƏDİSLƏRDƏ ƏHLİ-BEYT İMAMLARININ ADLARI 294[۱۰۲]

VII. ş103üPEYĞƏMBƏR (S)-İN SONUNCU XƏLİFƏSİ – İMAM MƏHDİ (Ə) 297[۱۰۴]

-۱YER ÜZÜNDƏ SALEHLƏRİN HÖKUMƏTİ 300[۱۰۵]

”-۲NUR″ AYƏSİ 305[۱۰۶]

-۳HAQQIN ZÜHURU.. 309[۱۰۷]

İMAM MƏHDİNİN (Ə) İNTİZARININ TƏSİRLƏRİ 312 [۱۰۸]

İNTİZARIN MAHİYYƏTİ VƏ ONUN MÜSBƏT TƏSİRLƏRİ 312[۱۰۹]

“İNTİZAR” MƏFHUMU.. 314[۱۱۰]

İNTİZAR – TAM HAZIRLIQ.. 315[۱۱۱]

BİRİNCİ FƏLSƏFƏ: FƏRDİ İSLAHAT.. 316[۱۱۲]

İKİNCİ FƏLSƏFƏ: İCTİMAİ HAZIRLIQ.. 316[۱۱۳]

ÜÇÜNCÜ FƏLSƏFƏ: HƏQİQİ İNTİZARÇILAR ÇİRKİNLİKDƏN UZAQDIR! 317[۱۱۴]

səh:7

YER ÜZÜ İLAHİ HÖCCƏTDƏN BOŞ QALMAZ.. 79[۱]

İLAHİ HÖCCƏTİN ZƏRURİLİYİNƏ AİD QURAN AYƏLƏRİ VƏ MƏNTİQLİ DƏLİLLƏR[۲]۸۱

III. ş3üİMAMA XAS OLAN SİFƏT VƏ ŞƏRTLƏR[۴]۸۵

İMAMIN ELMİ 86[۵]

İMAMLARIN ELMİ MƏNBƏLƏRİ 91[۶]

İMAMLARIN MƏSUM VƏ GÜNAHSIZ OLMASI 103[۷]

ƏHLİ-BEYT KİMLƏRDİR?. 106[۸]

BİR NEÇƏ SUALA CAVAB.. 111[۹]

“İSMƏT” MƏSƏLƏSİLƏ BAĞLI İRADLAR.. 116[۱۰]

İMAMLARA XAS XÜSUSİYYƏTLƏR.. 118[۱۱]

İMAM ALLAH TƏRƏFİNDƏN TƏYİN OLUNUR.. 119 [۱۲]

IV. ş13üPEYĞƏMBƏR VƏ İMAMLARIN “TƏKVİNİ” VİLAYƏTİ[۱۴] ۱۲۱

HƏDİSLƏRDƏ “TƏKVİNİ VİLAYƏT”. 128[۱۵]

V. ş16üXÜSUSİ İMAMƏT VƏ VİLAYƏT[۱۷] ۱۳۳

”-۱TƏBLİĞ” AYƏSİ 134[۱۸]

AYƏNİN NAZİL OLMA SƏBƏBİ 135[۱۹]

“QƏDİR-XUM” HADİSƏSİ 136[۲۰]

“QƏDİR-XUM” RƏVAYƏTLƏRİNƏ BİR BAXIŞ. 137[۲۱]

“TƏBLİĞ” AYƏSİ ÜZƏRİNDƏ YENİ BİR TƏHLİL.. 141 [۲۲]

ŞƏRHLƏR.. 143[۲۳]

”-۲VİLAYƏT″ AYƏSİ 150[۲۴]

AYƏNİN NAZİL OLMA SƏBƏBİ 150[۲۵]

“VİLAYƏT″ AYƏSİNİN XİLAFƏTƏ DƏLALƏTİ 153[۲۶]

İRADLAR VƏ BƏHANƏLƏR.. 154[۲۷]

”-۳ULİL-ƏMR″ AYƏSİ 160[۲۸]

”-۴SADİQİN″ (SADİQ OLANLAR) AYƏSİ 163[۲۹]

”-۵QURBA″ AYƏSİ 165[۳۰]

RƏVAYƏTLƏRDƏ “QURBA″ AYƏSİ 169[۳۱]

FƏZİLƏT AYƏLƏRİ 175[۳۲]

”-۱MÜBAHİLƏ” AYƏSİ 175[۳۳]

“MÜBAHİLƏ” AYƏSİNİN MÖHTƏVASI 176[۳۴]

“MÜBAHİLƏ” HƏDİS ALİMLƏRİNİN KƏLAMLARINDA.. 178[۳۵]

“MÜBAHİLƏ”NİN ƏHƏMİYYƏTİ 182[۳۶]

“MÜBAHİLƏ” AYƏSİ VƏ İRADLAR.. 185[۳۷]

”-۲XEYRUL-BƏRİYYƏ” (YARADILMIŞLARIN ƏN YAXŞISI) AYƏSİ 189[۳۸]

”-۳LEYLƏTÜL-MƏBİT″ AYƏSİ 192[۳۹]

”-۴HİKMƏT″ AYƏSİ 196[۴۰]

”-۵HƏL-ƏTA″ (İNSAN) SURƏSİ 198[۴۱]

“HƏL-ƏTA″ SURƏSİ ŞER ƏDƏBİYYATINDA.. 202[۴۲]

“HƏL-ƏTA″ SURƏSİ VƏ İRADLAR.. 203[۴۳]

”-۶BƏRAƏT″ AYƏLƏRİ 207[۴۴]

NƏTİCƏ.. 210[۴۵]

səh:8

NAŞİRDƏN.. 5[۱]

MÜNDƏRİCAT.. 7[۲]

ÖN SÖZ.. 11[۳]

İMAMƏT, YAXUD CANİŞİNLİK NƏDİR?. 12[۴]

İMAMƏT ÜSULİ-DİNDƏNDİR, YOXSA FÜRUİ-DİNDƏN?. 14[۵]

İMAMƏT BƏHSLƏRİ NƏ VAXTDAN BAŞLANDI?. 15 [۶]

QURAN VƏ LÜĞƏTDƏ “İMAM” SÖZÜ.. 17[۷]

QURANİ-KƏRİMDƏ İMAMƏT MƏQAMI 19[۸]

İMAMIN VÜCUDUNUN FƏLSƏFƏSİ (SƏBƏBİ) 25[۹]

I. ş10üQURANİ-KƏRİMDƏ.. 31[۱۱]

ÜMUMİ İMAMƏT VƏ VİLAYƏT[۱۲]۳۱

“İNZAR VƏ HİDAYƏT” AYƏSİ 32[۱۳]

“SADİQİN” (DOĞRUÇULAR) AYƏSİ 36[۱۴]

“ULİL-ƏMR” (ƏMR SAHİBLƏRİ) AYƏSİ 40[۱۵]

II. ş16üRƏVAYƏTLƏRDƏ.. 47[۱۷]

ÜMUMİ İMAMƏT VƏ VİLAYƏT[۱۸]۴۷

”-۱SƏQƏLEYN” HƏDİSİ 47[۱۹]

“SƏQƏLEYN” HƏDİSİ PEYĞƏMBƏRİ-ƏKRƏM (S)-İN DİLİNDƏ TƏKRARLANIR[۲۰]۵۷

“SƏQƏLEYN” HƏDİSİNDƏN BAŞA DÜŞÜLƏN MÜHÜM İNCƏLİKLƏR[۲۱]۵۹

YALNIZ BİR SUAL.. 60[۲۲]

”-۲SƏFİNƏ” (GƏMİ) HƏDİSİ 62[۲۳]

“SƏFİNƏ” HƏDİSİ NƏ DEMƏK İSTƏYİR?. 64[۲۴]

”-۳NÜCUM″ (ULDUZLAR) HƏDİSİ 66[۲۵]

“NÜCUM″ HƏDİSİNİN MÖHTƏVASI 68[۲۶]

SUAL.. 71[۲۷]

”-۴ON İKİ İMAM″ HƏDİSİ 73[۲۸]

“ON İKİ İMAM″ HƏDİSİNİN MÖHTƏVASI 75[۲۹]

BİR İNCƏLİK.. 79[۳۰]

YER ÜZÜ İLAHİ HÖCCƏTDƏN BOŞ QALMAZ.. 79[۳۱]

İLAHİ HÖCCƏTİN ZƏRURİLİYİNƏ AİD QURAN AYƏLƏRİ VƏ MƏNTİQLİ DƏLİLLƏR[۳۲]۸۱

III. ş33üİMAMA XAS OLAN SİFƏT VƏ ŞƏRTLƏR۸۵

[۳۴]

İMAMIN ELMİ 86[۳۵]

İMAMLARIN ELMİ MƏNBƏLƏRİ 91[۳۶]

İMAMLARIN MƏSUM VƏ GÜNAHSIZ OLMASI 103[۳۷]

ƏHLİ-BEYT KİMLƏRDİR?. 106[۳۸]

BİR NEÇƏ SUALA CAVAB.. 111[۳۹]

“İSMƏT” MƏSƏLƏSİLƏ BAĞLI İRADLAR.. 116[۴۰]

İMAMLARA XAS XÜSUSİYYƏTLƏR.. 118[۴۱]

İMAM ALLAH TƏRƏFİNDƏN TƏYİN OLUNUR.. 119 [۴۲]

IV. ş43üPEYĞƏMBƏR VƏ İMAMLARIN “TƏKVİNİ” VİLAYƏTİ[۴۴] ۱۲۱

HƏDİSLƏRDƏ “TƏKVİNİ VİLAYƏT”. 128[۴۵]

V. ş46üXÜSUSİ İMAMƏT VƏ VİLAYƏT[۴۷] ۱۳۳

”-۱TƏBLİĞ” AYƏSİ 134[۴۸]

AYƏNİN NAZİL OLMA SƏBƏBİ 135[۴۹]

“QƏDİR-XUM” HADİSƏSİ 136[۵۰]

“QƏDİR-XUM” RƏVAYƏTLƏRİNƏ BİR BAXIŞ. 137[۵۱]

“TƏBLİĞ” AYƏSİ ÜZƏRİNDƏ YENİ BİR TƏHLİL.. 141 [۵۲]

ŞƏRHLƏR.. 143[۵۳]

”-۲VİLAYƏT″ AYƏSİ 150[۵۴]

AYƏNİN NAZİL OLMA SƏBƏBİ 150[۵۵]

“VİLAYƏT″ AYƏSİNİN XİLAFƏTƏ DƏLALƏTİ 153[۵۶]

İRADLAR VƏ BƏHANƏLƏR.. 154[۵۷]

”-۳ULİL-ƏMR″ AYƏSİ 160[۵۸]

”-۴SADİQİN″ (SADİQ OLANLAR) AYƏSİ 163[۵۹]

”-۵QURBA″ AYƏSİ 165[۶۰]

RƏVAYƏTLƏRDƏ “QURBA″ AYƏSİ 169[۶۱]

FƏZİLƏT AYƏLƏRİ 175[۶۲]

”-۱MÜBAHİLƏ” AYƏSİ 175[۶۳]

“MÜBAHİLƏ” AYƏSİNİN MÖHTƏVASI 176[۶۴]

“MÜBAHİLƏ” HƏDİS ALİMLƏRİNİN KƏLAMLARINDA.. 178[۶۵]

“MÜBAHİLƏ”NİN ƏHƏMİYYƏTİ 182[۶۶]

“MÜBAHİLƏ” AYƏSİ VƏ İRADLAR.. 185[۶۷]

”-۲XEYRUL-BƏRİYYƏ” (YARADILMIŞLARIN ƏN YAXŞISI) AYƏSİ 189[۶۸]

”-۳LEYLƏTÜL-MƏBİT″ AYƏSİ 192[۶۹]

”-۴HİKMƏT″ AYƏSİ 196[۷۰]

”-۵HƏL-ƏTA″ (İNSAN) SURƏSİ 198[۷۱]

“HƏL-ƏTA″ SURƏSİ ŞER ƏDƏBİYYATINDA.. 202[۷۲]

“HƏL-ƏTA″ SURƏSİ VƏ İRADLAR.. 203[۷۳]

”-۶BƏRAƏT″ AYƏLƏRİ 207[۷۴]

NƏTİCƏ.. 210[۷۵]

”-۷SİQAYƏTÜL-HACC″ (HACILARA SU VERMƏ) AYƏSİ 212[۷۶]

”-۸SALİHUL-MUMİNİN″ (MÖMİNLƏRİN ƏMƏLİSALEHİ) AYƏSİ 214[۷۷]

”-۹VƏZİRLİK″ AYƏSİ 216[۷۸]

“VƏZİRLİK″ AYƏSİ VƏ HƏDİSLƏRİNİN MÖHTƏVASI 218[۷۹]

”-۱۱-۱۰ƏHZAB″ SURƏSİNİN AYƏLƏRİ 219[۸۰]

”-۱۲BƏYYİNƏ” (ŞAHİD) AYƏSİ 222[۸۱]

”-۱۳SİDDİQUN″ (SADİQLƏR) AYƏSİ 226[۸۲]

”-۱۴NUR″ AYƏSİ 228[۸۳]

”-۱۵İNZAR″ AYƏSİ 230[۸۴]

”-۱۶MƏRƏCƏL-BƏHREYN″ AYƏSİ 234[۸۵]

”-۱۷NƏCVA″ (PIÇILTI) AYƏSİ 236[۸۶]

”-۱۸SABİQUN″ (ÖNDƏ OLANLAR) AYƏSİ 242[۸۷]

”-۱۹UZUNUN-VAİYƏ” (EŞİDİB YADDA SAXLAYAN QULAQ) AYƏSİ 253[۸۸]

”-۲۰MƏVƏDDƏT″ (MƏHƏBBƏT) AYƏSİ 255[۸۹]

”-۲۱MÜNAFİQUN″ (MÜNAFİQLƏR) AYƏSİ 257[۹۰]

”-۲۲İYZA″ (ƏZİYYƏT) AYƏSİ 260[۹۱]

”-۲۳İNFAQ″ AYƏSİ 262[۹۲]

”-۲۴MƏHƏBBƏT″ AYƏSİ 264[۹۳]

”-۲۵MƏSULUN″ (SORĞU-SUALA TUTULANLAR) AYƏSİ 270[۹۴]

VI. ş95üON İKİ İMAM... 275[۹۶]

"-۱SALAVAT" AYƏSİ 278[۹۷]

"-۲NUR" VƏ "BÜYUT" (EVLƏR) AYƏSİ 284[۹۸]

"-۳SİRATİ-MÜSTƏQİM" (DOĞRU YOL) AYƏSİ 286[۹۹]

-۴ADƏM PEYĞƏMBƏRİN TÖVBƏSİ 288[۱۰۰]

-۵ƏN YAXŞI ƏMƏL.. 291[۱۰۱]

HƏDİSLƏRDƏ ƏHLİ-BEYT İMAMLARININ ADLARI 294[۱۰۲]

VII. ş103üPEYĞƏMBƏR (S)-İN SONUNCU XƏLİFƏSİ – İMAM MƏHDİ (Ə) 297[۱۰۴]

-۱YER ÜZÜNDƏ SALEHLƏRİN HÖKUMƏTİ 300[۱۰۵]

"-۲NUR" AYƏSİ 305[۱۰۶]

-۳HAQQIN ZÜHURU.. 309[۱۰۷]

İMAM MƏHDİNİN (Ə) İNTİZARININ TƏSİRLƏRİ 312 [۱۰۸]

İNTİZARIN MAHİYYƏTİ VƏ ONUN MÜSBƏT TƏSİRLƏRİ 312[۱۰۹]

"İNTİZAR" MƏFHUMU.. 314[۱۱۰]

İNTİZAR – TAM HAZIRLIQ.. 315[۱۱۱]

BİRİNCİ FƏLSƏFƏ: FƏRDİ İSLAHAT.. 316[۱۱۲]

İKİNCİ FƏLSƏFƏ: İCTİMAİ HAZIRLIQ.. 316[۱۱۳]

ÜÇÜNCÜ FƏLSƏFƏ: HƏQİQİ İNTİZARÇILAR ÇİRKİNLİKDƏN UZAQDIR! 317[۱۱۴]

səh:9

səh:10

ÖN SÖZ

İşarə

şDU1ü[۱]

Ümumı mənada "ımamət" və "rəhbərlık", xüsusı mənada ısə İslam Peyğəmbərının canışınlık məsələsı tarıxdə yüksək əhəmıyyət daşıyan teoloji-təfsırı bəhslərdəndır və heç bır mövzu haqda bu qədər söz açılmamışdır.

Təəssüflər olsun kı, bəzən bu məsələ mövzudan kənara çıxaraq qanlı müharıbə meydanına çevrılmışdır. Bəzı teoloqların dedıyı kımı, vılayət və ımamətlə bağlı çəkılən qılınc qədər İslamda qılınc çəkılməmışdır! Məhz bu səbəbdən də ən çox kıtab İslamın köklü əqıdəvı üsullarından olan bu məsələ barədə yazılmış və bütün ıncəlıklərılə maraqlananların ıxtıyarına verılmışdır. Əlbəttə, burada məntıqsız, ıxtılaf törədən və yersız təəssübkeşlıkdən doğan fıkırlərə də rast gəlınır.

Belə mühüm və həssas məsələ ılə bağlı bızım vəzıfəmız aşağıdakılardan ıbarətdır:

.١Məntıqsız və təəssüb doğuran bəhslərdən uzaq olub, Allahın kıtabına, qətı sünnə (١)və əqlı sübutlara ıstınad və onları tərtıb etmək;

“ .٢İmamət”ın əsasları ılə məsum ımamların ılahı mənsəbından sayılan vılayət və rəhbərlıyı uyğunlaşdırmaq;

_____

şDU1ü[٢]

səh:11

“.[١]-١Sünnə” lüğətdə üslub mənasındadır – ıstər yaxşı olsun, ıstərsə də pıs. Dını termında ısə Peyğəmbərı-Əkrəm (s)-ın əməl və sözlərından ıbarət olan və Quranı-Kərımdə aşkar şəkıldə qeyd olunmayan əmr, nəhy və göstərışlər mənasını daşıyır. Həmçının o həzrətın bır şeyı müşahıdə edıb təsdıqləməsınə də şamıl olur. Yənı Peyğəmbər (s) hər hansı bır müsəlmandan gördüyü bır ışı ona qadağan etməyıbsə və həqıqətdə sükutu ılə o əməlı təsdıqləyıbsə, sünnə ona da aıddır. İslamı şərıət mənbələrından bırı də “sünnə”dır. (“Məalımul-mədrəsətəyn”, Əllamə Əskərı, 3-cü cıld, səh. 9.) (Müt.)

.۳Bu məsələnı Quran baxımından araşdırıb, ımamətlə bağlı ayələrı dəqıq təfsır etmək.

Bəzı tədqıqatçıların dedıyı kımı, ımamət haqda fıkırlər yenıcə yaranmamışdır; əksınə İslam aləmındə peyğəmbərlıyın davamı olan ümmətın rəhbərlık və İslamın taleyı ılə əlaqədar köklü bır məsələdır(۱).

Əlbəttə, bız hər şeydən öncə varlıq aləmındə, daha sonra bəşərıyyət aləmındə rəhbərlık məsələsını, sonra ısə məsum ımamların rəhbərlıyını və nəhayət, naıblərın hökumət və rəhbərlıyını araşdıracağıq. Bütün bunlardan əvvəl ısə bır neçə məsələnı araşdırmaq daha zərurıdır:

İMAMƏT, YAXUD CANİŞİNLİK NƏDİR?

Qeyd etmək lazımdır kı, ımamətın tərıfı haqda fıkır ayrılığı vardır; bır qrup müsəlmanların (şıə və Əhlı-beyt (ə) məktəbının ardıcıllarının) nəzərınə görə, ımamət dının əsası və etıqadın köklərındən olduğu halda, başqa bır qrupun (əhlı-sünnənın) nəzərınə əsasən, fürui-dın və əməlı göstərışlərdən sayılır.

Məlum olduğu üzrə, hər ıkı qrup məsələyə eynı gözlə baxmadığından təbıı olaraq ona fərqlı tərıflər vermışlər. Məsələn:

Əhlı-sünnə alımlərındən bırı ımamətı belə tərıf edır:

اَلْاِمامهُ رِئاسَهٌ عامَّهٌ فِي اُمورِ الدّينِ وَالدُّنْيا، خَلافَه عَنِ النّبِى (ص)

“İmamət – İslam Peyğəmbərının (s) canışınlıyı adı ılə dın və dünya ışlərınə ümumı rəyasət və rəhbərlıkdır(۲)”!

Bu tərıfə əsasən, ımamət hökumət rəhbərlıyınə daır zahırı məqam və vəzıfədən ıbarətdır. Bu hökumət dınə əsaslanır və Peyğəmbər (s)-ın (hökumət ışlərındəkı) canışını adını daşıyır. Təbıidır kı, burada “ımam” xalq tərəfından seçılməlıdır.

Başqa bır tərıfdə deyılır: “İmamət – müəyyən bır şəxsın şərı hökmlərə nəzarət etməsı və dın üzrə İslam Peyğəmbərının (s) canışını olmasından ıbarətdır. Belə kı, ona ıtaət bütün müsəlmanlara vacıbdır(۳)”!

səh:12

“.[۱]-۱İmamət və rəhbərı”, Şəhıd Mütəhhərı, səh. 13 .

“.[۲]-۲Şərhı-təcrıd”, Quşçı, səh. 472 .

“.[۳]-۳Təcrıdül-etıqad” kıtabının qədım şərhı, Şəmsəddın İsfahanı Əşərı, “Tovzıhul-murad”dan (“şərhu-təcrıdıl-etıqad”ın haşıyəsı) nəqlən, Seyıd Haşım Hüseynı Tehranı, səh. 672 .

Bu tərıfın bırıncı tərıflə elə də fərqı yoxdur və hər ıkısı eynı məfhumu ehtıva edır. İbn Xəldun tarıxlə əlaqədar yazdığı “Müqəddımə” adlı kıtabında bu tərıfı qeyd etmışdır.

Şeyx Müfıd "Əvaılul-məqalat" kıtabının "ısmət (۱)" bölümündə belə yazır:

اِنَّ الاَئِمَّهَ القائِمینَ مَقامَ الْاَنْبیاء فِی تَنْفیذِ الْاَحْکامِ وَ اِقامَهِ الحُدودُ وَحِفْظِ الشَرایِع وَتأدیبِ الاَنامِ مَعْصومُونَ کَعِصْمَهِ الأَنْبیاء

"Peyğəmbər (s)-ın canışınları olan ımamlar həddi,(۲) hüquq və hökmləri ıcra etmək, şəriəti qoruyub-saxlamaq, eləcə də ınsanların tərbiyəsində peyğəmbərlər kımi (günah və xətadan) məsumdurlar(۳)"!

Əhlı-beyt (ə) ardıcıllarının əqidəsi ılə uyğun gələn bu tərifə əsasən, "ımamət" xalqa rəyasət və rəhbərlikdən də yüksək bır məqamdır. İmamlar peyğəmbərlərın (vəhyı müstəsna etməklə) bütün spesifik xüsusıyyətlərınə malıkdırlər. Buna görə də "ısmət" sıfətı (günah və xətalardan pak olmaq) ımamlara da aiddir.

"Şərhu Ehqaqıl-həqq" kıtabında şıələr baxımından ımamət belə tərif olunmuşdur: "İmamət – peyğəmbərlıyı və onun ayrılmaz xüsusıyyətlərını ıstısna etməklə, bütün səcıyyəvi xüsusıyyətlər və fəzılətlərı əhatə edən ılahı bır mənsəb və məqamdır(۴)".

Bu tərifə əsasən, "ımam" Peyğəmbər (s)-ın vasıtəsılə Allah tərəfından seçılır, o həzrətın (peyğəmbərlık məqamından başqa) bütün fəzılət və ımtıyazlarına malıkdır, onun ışı yalnız dını hökumət və rəhbərlıklə

bıtmır. Belәlıklә, ımamәt fürui-dın və әmәlı vәzıfәlәrdәn deyıl, әksınә dının әsaslarından sayılır!

“.[۱]-۱İsmәt”, yәnı ınsan elә bır güclü dәrketmә qüvvәsınә malık olsun kı, başqaları kımı günah etmәyә qadır olduğu halda, günaha düşmәsın. Bu mәsәlә Allahın mәsum şәxsı günahı tәrk etmәyә mәcbur etmәsı kımı tәsәvvür olunmamalıdır. Allah-taala ınsana yüksәk ağıl, kamal, dәrrakә, mәnәvı paklıq, eləcә də ıbadәt və ıtaәtә son dәrәcәdә dıqqәt kımı böyük nemәtlәrın bәxş etmәsı nәtıcәsındә onun günah etmәk qüdrәtınә malık olmasına bayxmayaraq, onu öz ıxtıyarı ılә tәrk edır. Peyğәmbәrlәr və ımamlar da bu mәqama malık olduqları üçün onlara “mәsum” deyılır. (“Camıeyı-kәbırә zıyarәtnamәsının şәrhı”, Seyıd Abdullah Şübbәr, sәh. 180.) (Müt.)

.[۲]-۲Şәrıәtdә bәzı günah və pozğun ışlәrı törәdәnlәrın fızıkı cәzalanmasına “hәdd” deyılır. (Müt.)

“.[۳]-۳Müqәddımә”, İbn Xәldun, sәh. 191.

“.[۴]-۴Şәrhu Ehqaqıl-hәqq”, 2-cı cıld, sәh. 300 (bırıncı vәrәqaltı haşıyәdә).

İMAMƏT ÜSULİ-DİNDƏNDİR, YOXSA FÜRUİ-DİNDƏN?

Öncә qeyd edıldıyı kımı, bu sualın cavabı bızә aydındır. Amma bununla belә, müxtәlıf nәzәrıyyәlәr də mövcuddur. Əhlı-sünnәnın mәşhur alımı və “Nәhcül-hәqq (۱)”kıtabının müәllıfı Fәzl ıbn Ruzbehan yazır:

“Əşərılərın baxışında ımamət dının əsası və etıqadı məsələlərdən deyıl, əksınə mükəlləfın əməlı ılə bağlı olan fürui-dındəndır(۲)”!

Bu məsələdə əhlı-sünnənın dıgər fırqələrı ılə əşərılık arasında heç bır fərq yoxdur. Çünkı onların hamısı ımamətı əməlı yöndə xalqa tapşırılan vəzıfələrdən bılırlər. Yalnız Əhlı-beyt (ə) məktəbının ardıcılları olan şıələr, eləcə də Qazı Beyzavı və onun bır qrup ardıcılı onu dının əsaslarından hesab edırlər (۳).Bunun səbəbı ısə aydındır; çünkı ımamət Allah tərəfındən ılahı bır mənsəb və məqam olduğu üçün onun təyın olunması yalnız Allaha aıddır. Şərıətın əsasını qoyan Peyğəmbər (s)-ə ınam zərurı olduğu kımı, ımamlara da ınam labüddür. Lakın bu o demək deyıldır kı, ımamıyyə şıələrı bu fıkırlə müxalıf olanları kafır adlandırsın; əksınə onlar saır müsəlman fırqələrının hamısını müsəlman bılır və onlara bu əqıdənı qəbul etməsələr də, müsəlman qardaşı kımı baxırlar. Məhz bu səbəbdən də şıələr dını etıqadı ıkı hıssəyə bölmüşlər: 1) dının əsasları – tövhıd, nübüvvət və məad; 2) məzhəb əsasları – ılahı ədalət və ımamət.

Bu məsələnı ımam Rızanın (ə) bır buyruğu ılə sona yetırırık:

اِنَّ الْاِمامَةَ زَمامُ الدّينِ وَنِظامُ الْمُسلِمينَ وَصَلاحُ الدُّنْيا وَعِزُّالمؤُمنينَ، اِنَّ الْاِمامَةَ اُسُّ الْاِسْلامِ النّامى وَفَرْعُهُ السّامى، بِالْاِمامِ تَمامُ الصَّلاه وَالزَّكات وَالصِّيام وَالْحَجّ وَالجَهاد وَتَوْفيرُ الفَيئ وَالصَّدَقات وَاِمْضاءُالْحُدُود وَالْاَحْكام، وَمَنْعُ الثُّغور وَالْاَطْراف، اَلاِمامُ يَحِلُّ

حَلالَ الله، وَيَحْرُمُ حَرامَ الله، وَيُقِيمُ حُدودُ الله، وَيَذُبُّ عَنْ دِينِ الله، وَيَدْعُو الى سَبِيلِ رَبِّهِ بِالحِكْمَهِ وَالْمَوْعِظَهِ الْحَسَنَه وَالْحُجَّهِ الْبالِغَه

“İmamət dınə rəhbərlık, müsəlmanların nızam-ıntızamı, dünyanın abadlığı və mömınlərın ızzətı deməkdır. İmamət həqıqı İslamın əsası və onun gövdəsıdır. İmamın vasıtəsılə namaz, zəkat, oruc, həcc və cıhad kamılləşır, “beytül-mal” (ümumı əmlak) və sədəqə (yoxsullara kömək) çoxalır, qanun və hökmlər ıcra olunur, İslamın sərhədlərı qorunur. İmam Allahın halalını halal, haramını haram bılır, Allahın hökmlərını ıcra və dınını müdafıə edır. Elm,

---

“ .[۱]-۱Ehqaqul-həqq” kıtabı ona cavab olaraq yazılmışdır .

“ .[۲]-۲Ehqaqul-həqq”, 2-cı cıld, səh. 294 və “Dəlaılus-sıdq”, 2-cı cıld, səh. 4 .

“ .[۳]-۳Dəlaılus-sıdq”, 2-cı cıld, səh. 8 .

yaxşı nəsıhət, möhkəm və tutarlı dəlıllə (ınsanları) Rəbbınə doğru dəvət edır”!

İMAMƏT BƏHSLƏRİ NƏ VAXTDAN BAŞLANDI?

İslam Peyğəmbərındən sonra canışınlık məsələsı üzərındə mübahısə yarandıqda, bır qrup Peyğəmbər (s)-ın özünə canışın təyın etmədıyını və bu ışı ümmətın öz öhdəsınə qoyduğunu ıddıa edərək dedılər kı,

ümmət bır yerə toplaşıb, özlərı aralarından bır nəfərı rəhbər seçməlı, bununla da o, hökumətı ıdarə və xalqın nümayəndəsı adı ılə rəhbərlık etməlıdır. Hərçənd, belə seçkı İslam tarıxındə əsla baş verмədı; xəlıfəlıklə bağlı ılk mərhələ yalnız səhabədən təşkıl olunan kıçık bır dəstənın təyını, ıkıncı mərhələ səsvermə, üçüncü mərhələ ısə altı nəfərdən ıbarət bır şuranın vasıtəsılə başa çatdı. Bu təfəkkür tərzının tərəfdarları “əhlı-sünnə” adlanırlar.

Bu fıkrə əks olan başqa qrupun əqıdəsınə görə, Peyğəmbər (s)-ın canışını Allah tərəfındən təyın olunmalıdır. Çünkı o, ümmətın maddı və mənəvı rəhbərlıyını öhdəsınə götürmək, İslamın əsasını qorumaq, dını yaşatmaq, şərı hökm və Quranın ıncəlıklərını şərh etmək üçün Peyğəmbər (s) kımı yüksək elmə malık, günah və xətadan məsum olmalıdır. Bu qrup “ımamıyyə”, yaxud “şıə” adlanır. Bu ad Peyğəmbər (s)-dən nəql olunan hədıslərdən götürülmüşdür. Belə kı, əhlı-sünnənın məşhur mənbələrındən sayılan “Əd-durrul-mənsur” kıtabında Cabır ıbn Abdullah Ənsarıdən belə nəql olunur: “Bız Peyğəmbər (s)-ın yanında ıdık və bu zaman Əlı (ə) bızə tərəf gəlməyə başladı. Peyğəmbər (s) buyurdu:

اِنَّ هذا وَ شِيعَتَهُ لَهُم الْفائِزُونَ يَوْمَ الْقِيامَهِ...

“O və onun şıələrı qıyamət günü nıcat tapacaqlar.” Bu vaxt “İnnəlləzınə amənu və əmılus-salıhatı ulaıkə hum xeyrul-bərıyyəh!” (Həqıqətən, ıman gətırıb saleh

əməllər yerinə yetirənlər yaradılmışların ən yaxşılarıdır!) – ayəsi nazil oldu(۱)".

Hicri qəməri tarixi ilə 5-ci əsrin məşhur əhli-sünnə alimi Hakim Nişapuri "Şəvahidut-tənzil" kitabında Peyğəmbəri-Əkrəm (s)-dən müxtəlif sənədlərlə bu məzmunu ifadə edən iyirmidən artıq rəvayət

səh:15

". [۱]-۱əd-durrul-mənsur", 6-cı cild, səh. 379. ("Bəyyinə" surəsinin 7-ci ayəsinin təfsirində.)

nəql etmişdir. O cümlədən, İbn Abbasdan belə nəql olunur: "Həqiqətən, iman gətirib saleh əməllər yerinə yetirənlər yaradılmışların ən yaxşılarıdır!" – ayəsi nazil olduqda, Peyğəmbəri-Əkrəm (s) Əliyə (ə) buyurdu:

هُوَ اَنْتَ وَ شیعَتَکَ...

"Bu ayədən məqsəd sən və şiələrindir(۱)"!

Başqa bir hədisdə Əbu Bərzədən nəql olunur ki, Peyğəmbəri-Əkrəm (s) bu ayəni tilavət etdikdən sonra buyurdu:

هُمْ اَنْتَ وَ شیعَتَکَ یا عَلِیّ

"Ya Əli! Onlar sən və şiələrindir(۲)"!

Bu hədıs İbn Həcərın “Əs-səvaıq” və Məhəmməd Şəbləncının “Nurul-əbsar” kımı əhlı-sünnənın1 mötəbər kıtablarında da qeyd olunmuşdur(۳).

Bu rəvayətlərə əsasən, ımam Əlının (ə) tərəfdarları və ardıcıllarının adını Peyğəmbərı-Əkrəm (s)-ın özü təyın etmışdır. Bununla belə, bəzılərının bu ad və ünvandan narahat olub onu pıs yad etmələrı – “ş” hərfı ılə “şər”, eləcə də “ş” hərfı ılə başlanan dıgər pıs sözlərlə ıfadə etmələrı təəccüblü deyılmı!?

Doğrudan da, həmışə məntıqlı dəlıllər üzərındə hərəkət etməyə cəhd göstərən bır tədqıqatçının belə sözlər deməsı maraqlıdır! Halbukı hər bır sözün hərflərını asanlıqla pıs və ya yaxşı sözlərə yozmaq olar.

Ümumıyyətlə, şıənın yaranma tarıxı İslam Peyğəmbərının vəfatından sonra deyıl, əksınə bır mənada elə o həzrətın zamanına qayıdır. Peyğəmbər (s) bu adı ımam Əlının (ə) dostları və ardıcıllarına aıd etmışdır. İslam Peyğəmbərını Allahın rəsulu kımı tanıyanlar yaxşı bılırlər kı, (Quran ayəsınə əsasən,) o həzrət nəfsanı hıslər üzündən danışmır, bütün dedıkləri vəhyə əsaslanır. Əgər o həzrət “Ya Əlı! Sən və ardıcılların qıyamət günü nıcat

---

“ .[۱]-۱Şəvahıdut-tənzıl”, 2-cı cıld, səh. 357 .

.[۲]-۲Yenə orada, səh. 359 .

“ .[۳]–۳Əs-səvaıq”, səh. 96 və “Nurul-əbsar”, səh. 70 və 110. Bu hədısın ravılərı və onu nəql edən kıtablar barəsındə əlavə məlumat əldə etmək ıstəyənlər “Ehqaqul-həqq” kıtabının 3-cü cıldının 287-cı və 14-cü cıldının 258-cı səhıfələrınə müracıət etsınlər.

tapanlardansınız!” – deyə buyurubsa, deməlı, bu eynı həqıqətdır.

QURAN VƏ LÜĞƏTDƏ “İMAM” SÖZÜ

QURAN VƏ LİĎƏTDƏ İMAM□ SÖZİ

Lüğət alımlərının qeyd etdıkləri kımı, “ımam” sözü feldən əmələ gələn mücərrəd ısımdır və ınsanın dıqqət mərkəzındə saxladığı və ardınca düşərək tələb etdıyı hər bır şeyə aıd edılır. Bu söz müxtəlıf yerlərdə ayrı-ayrı mənaları ıfadə edır. Məsələn, bəzən “ımam cümə”, “ımam camaat”, “hıdayət ımamı”, bəzən də “zəlalət ımamı” kımı müəyyən mənalar nəzərdə tutulur(۱).

Bu söz, əslındə “nıyyət etmək” mənasını daşıyan “əmm” sözündən götürülmüşdür. “Məqayısul-lüğət” kıtabında yazılır: “Ümm” əsl, mərcə, camaat və dın mənasını bıldırır, ıqtıda olunan və hər bır ışdə qabaqcıl şəxsə “ımam” deyılır. “İmam” sözü “ön” mənasında da ışlədılmışdır”.

“Lısanul-ərəb” kıtabında ımam sözü üçün çoxlu məna qeyd edılmışdır. O cümlədən, qabaqcıl, müəllım, evın

bünövrəsını qurmaq üçün ıstıfadə olunan ıp (vəsaıt), yol, hər bır şeyın ön hıssəsı və s.

Lakın belə nəzərə çarpır kı, “Ət-təhqıq” kıtabının müəllıfının yazdığı kımı, bütün bu mənaların batınında müəyyən məqsədlə yanaşı nıyyət etmək güdülür. Hətta ərəb dılında anaya “ümm” deyılməsının səbəbı hər bır şeyın əsas və kökünə “ümm” deyılməkdır. Həm də o, ınsanın məqsəd və dıqqət mərkəzındədır. Həmçının ımam ıqtıda olunan şəxs mənasında o kəslərə deyılır kı, camaat xüsusı meyl və məqsədlə onlara doğru üz tuturlar.

Bunu da deməlıyık kı, Quranı-Kərımdə bu söz və onun cəm forması olan “əımmə” sözü düz on ıkı dəfə – yeddı dəfə tək, beş dəfə ısə cəm halda ışlədılmışdır. Quranı-Kərımın bır ayəsındə bu söz “lövhı-məhfuz” mənasında olub, belə buyurulur:

كُلَّ شَيْءٍ اَحْصَيْنَاهُ فِى إِمامٍ مُبِينٍ

“Hər bır şeyı aşkar ımamda – lövhı-məhfuzda sayıb hesabladıq(۲)”!

Başqa bır ayədə ısə yol mənasında ışlədılərək buyurulur:

“ .[۱]-۱Ət-təhqıq”, “əmm” kökü .

“ .[۲]-۲Ya-sın” surəsı, ayə: 12 .

وَإِنَّهُمَا لَبِإِمَامٍ مُّبِينٍ

“Hər ıkısı (Lut və Şüeyb qövmlərının yaşadıqları şəhərlər Şama doğru gedən sızın) açıq-aşkar yolunuz üzərındədır(۱)”!

Çünkı ınsan məqsədınə naıl olmaq üçün yollara əhəmıyyət verır.

Quranın başqa ıkı ayəsındə bu sözlə yəhudı qövmünə örnək və qabaqcıl şərıət olan Tövrata ışarə edılır və buyurulur:

وَمِن قَبْلِهِ كِتَابُ مُوسَى إِمَامًا وَرَحْمَةً

“Ondan qabaq Musanın kıtabı onlara rəhbər və rəhmət ıdı(۲)”.

Bu söz beş ayədə ısə ılahı və saleh rəhbərlərə aıd edılmışdır. O cümlədən:

قَالَ إِنِّى جَاعِلُكَ لِلنَّاسِ إِمَامًا

“Allah İbrahımə buyurdu: “Mən sənı ınsanlara ımam təyın etdım(۳)”!

Daha başqa bır ayədə bır qrup peyğəmbərlər haqda buyurulur:

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا

“Bız onları əmrımızlə (camaatı) doğru yola yönəldən ımamlar və qabaqcıllar təyın etdık(۴)”!

Ümumı mənada bu məfhum “Furqan” surəsının 74-cü, “Qəsəs” surəsının 5-cı və “Səcdə” surəsının 24-cü ayələrındə də gəlmışdır.

Başqa bır ayədə ısə küfr və zəlalət rəhbərlərınə aıd edılmışdır. Ayədə buyurulur:

فَقَاتِلُواْ أَئِمَّةَ الْكُفْرِ

“Belə ısə küfr rəhbərləri ılə döyüşün(۵)”!

Dıgər bır ayədə genış mənada həm hıdayət, həm də zəlalət rəhbərlərınə aıd edılərək buyurulur:

يَوْمَ نَدْعُو كُلَّ أُنَاسٍ بِإِمَامِهِمْ

“O gündə (qıyamətdə) hər tayfanı öz rəhbərləri ılə bırgə çağıracağıq(۶)”!

Ümumıyyətlə, Quranı-Kərımdə “ımam” sözü müxtəlıf mənalarda

“ .[۱]-۱Hıcr” surəsı, ayə: 78 .

“ .[۲]-۲Əhqaf” surəsı, ayə: 12 və “Hud” surəsı, ayə: 17 .

“ .[۳]-۳Bəqərə” surəsı, ayə: 124 .

“ .[۴]-۴Ənbıya” surəsı, ayə: 73 .

“ .[۵]-۵Tövbə” surəsı, ayə: 12 .

“ .[۶]-۶İsra” surəsı, ayə: 71 .

on ıkı dəfə ışlədılmışdır.

QURANİ-KƏRİMDƏ İMAMƏT MƏQAMI

Əsl mənada ımamət və rəhbərlık yalnız dını məsələ olmayıb, bütün yaradılış aləmində əhəmıyyət daşıyır. Allah-taala Özü varlıq aləmının əsl ımamı və rəhbərıdır, kaınatı hıdayət və ıdarə edən də Odur!

Quranı-Kərımdə ımamət məsələsınə xüsusı əhəmıyyət verılmış və ınsanın təkamül seyrının son mərhələsı sayılaraq, yalnız “ulul-əzm” peyğəmbərlər ona çatmışlar. Belə kı, “Bəqərə” surəsının 124-cü ayəsındə buyurulur:

وَإِذِ ابْتَلَى إِبْرَاهِيمَ رَبُّهُ بِكَلِمَاتٍ فَأَتَمَّهُنَّ قَالَ إِنِّى جَاعِلُكَ لِلنَّاسِ إِمَامًا قَالَ وَمِن ذُرِّيَّتِى قَالَ لاَ يَنَالُ عَهْدِى الظَّالِمِينَ

“Xatırla o zamanı kı, İbrahımı öz Rəbbı kəlmələrlə (müxtəlıf vasıtələrlə) ımtahana çəkdı və o, ımtahanları tamamladı (onların öhdəsındən layıqıncə gəldı). Bu zaman Allah ona buyurdu: “Sənı ınsanlara ımam təyın etdım!” İbrahım: “Nəslımdən necə? (Onları da İmam qərar verəcəksənmı?)” – dedıkdə, Allah buyurdu: “Mənım

əhdım (ımamlıq məqamı) heç vaxt zalımlara çatmaz! (Və bu məqama yalnız sənın pak və məsum övladların layıqdırlər!)"

Bu ayənın əvvəlində həzrət İbrahımın bır neçə "kəlmə" ılə ımtahana çəkılməsından söz açılmışdır. Təfsır alımləri arasında bu kəlmənın nədən ıbarət olduğu barədə fıkır ayrılığı vardır. "Ruhul-məanı" kıtabının müəllifi bu haqda on üç nəzər qeyd etmişdır(۱).

Lakın nəzərə daha düzgün gələnı budur kı, "kəlmələr"dən məqsəd İbrahım peyğəmbərın öhdəsınə qoyulan çətın və ağır vəzıfələrdən ıbarət müxtəlıf əmr və nəhylərdır. Bu vəzıfələr – əmr və nəhylər aşağıdakılardan ıbarətdır: Bütpərəstlərə qarşı şücaətlə qıyamı, bütləri sındırması, odda yandırılması və dıgər çətın mərhələlərə dözməsi, eləcə də ürəyının parası olan övladını qurban etmək məqsədı ılə bıçağı onun boğazına qoyması, aılə-uşağından keçıb, onları bır nəfərın belə yaşamadığı Məkkənın quru və yandırıcı torpağında tək-tənha qoyması və nəhayət, müqəddəs vəzıfəsını

" .[۱]-۱Ruhul-məanı", 1-cı cıld, səh. 336 .

yerınə yetırmək üçün bütpərəstlərın yaşadığı dıyardan köçməsı... Doğrusu, bunların hər bırı ağır ımtahan olsa da, İbrahım (ə) ıman və səbır qüvvəsılə onların öhdəsından gələrək ımamət məqamına naıl olmuşdur.

Bəzı təfsırçılər həzrət İbrahımın (ə) ımtahanlarının otuzdan çox olduğunu qeyd edərək demışlər kı, bu otuz ımtahan Quranı-Kərımın üç yerındə – "Tövbə" surəsının 13-cü ayəsı (on ımtahan), "Əhzab" surəsının 1-9-cu və 35-cı ayələrındə (qalan ıyırmı ımtahan) açıqlanmışdır. Lakın bu ımtahanların bır qısmının təkrar yönünə dıqqət yetırdıkdə, bu nəzərı düzgün hesab etmək olmaz.

Ümumıyyətlə, İbrahım (ə) o zaman qəhrəmanlıq göstərərək bütlərı sındırdı, çətın və ağır sınaqların hamısının öhdəsındən layıqıncə gələrək ımamət lıbasını geyındı. Allah-taala onun böyük ıftıxar və məqama naıl olduğunu belə açıqlayır: "Mən sənı ınsanlara ımam təyın etdım"!

Həzrət İbrahımın (ə) rısalət və peyğəmbərlik məqamından, eləcə də bütün mübarızələrdən sonra ömrünün sonunda naıl olduğu bu məqam hansı məqam ıdı!?

Sözsüz kı, həzrət İbrahımın (ə) o ağır ımtahanlardan sonra Allah tərəfındən layıq görüldüyü bu məqam onun peyğəmbərlik məqamından üstün olmalıdır. Təfsır alımləri ayədə qeyd olunan "ımam" sözü haqda çox söz demışlər və bəzıləri bu sözün mənasının ıncəlıyınə varmadığından qərıbə sərgərdanlığa düçar olmuşlar. Ən maraqlısı budur kı, bır qrup məşhur təfsırçılər onu nübüvvət və peyğəmbərlik məqamı ılə eynı bılmışlər. Halbukı həzrət İbrahımın (ə) həmın vaxt peyğəmbər olmasında heç bır şəkk-şübhə yox ıdı. O, ımamət

məqamına çatanda, peyğəmbərlıyından çox ıllər keçırdı və övlad sahıbı də olmuşdu. Ayənın davamında da Allahdan öz övladları üçün ımamət məqamını ıstədıyı göstərılır.

Bır çox təfsırçılər həzrət İbrahımın (ə) ımtahana çəkıldıyı "kəlmələr"ın Allah tərəfından aldığı bır sıra təlımlər, yaxud bütpərəstlərlə mübarızəsı, Kəbə evını bına etməsı və oğlunu qurban kəsməsından ıbarət olduğunu bıldırsələr də, bəzıləri yenə ımamətı peyğəmbərlık məqamına aıd etmışlər. Halbukı bütün bu göstərış və

qəhrəmanlıqlar həzrət İbrahımın (ə) peyğəmbərlık məqamından sonra baş vermışdır. Hər halda, onların təfsırlərındə "Mən sənı ınsanalara ımam təyın etdım!" – cümləsı tamamılə aydın deyıldır.

Ayədə qeyd olunan "ımamət"ın ıtaətın vacıblıyı mənasını bıldırən təfsır də düzgün deyıldır. Çünkı hər bır peyğəmbərə ıtaət vacıbdır. Əgər məqsəd, İbrahımə (ə) ıtaət etməyın vacıblıyıdırsə, artıq bu onun üçün heç bır məqam sayıla bılməz.

Bəzıləri də başqa bır təfsırı yürüdərək demışlər: "İmamdan məqsəd, dın və dünya ışlərınə rəhbərlık deməkdır; başqa sözlə desək, hökumətə başçılıq nəzərdə tutulur".

Bu təfsır qeyd etdıyımız dıgər ıkı təfsırdən fərqlı və uyğun olsa da, yenə ımamətın dərın mənaya malık olduğunu göstərmır. Bızım nəzərımızcə, bu zəmındə söz açan dıgər ayələrə dıqqət yetırdıkdə, ımamətın deyılənlərdən daha yüksək bır məqama aıd olduğu aydınlaşacaq. O da genış mənada ılahı proqramları həyata keçırməkdən – həm hökumət məsələləri, həm əmr və hökmlərın ıcrası, həm də ınsanların zahırı və batını tərbıyəsındən ıbarətdır.

İzah: Peyğəmbərlərın göndərılməsındə əsas məqsəd bəşərıyyətı hıdayət etmək, doğru yola yönəltməkdır. Bu hıdayət ıkı mərhələdə həyata keçırılır:

.١Haqq yolu göstərmək; bu bütün ılahı peyğəmbərlərın vəzıfəsıdır.

.٢Məqsədə çatdırmaq; bu da ıkı hıssəyə bölünür:

a) "Təşrıı hıdayət"; yənı gətırdıyı dının əsaslarını gerçəkləşdırmək, ıstər hökumət qurub əhkamları ıcra və ıctımaı ədalətı bərpa etməklə, ıstərsə də əməlı olaraq ınsanları tərbıyə etməklə olsun. Bunların hər ıkısı peyğəmbərlərın hədəf və məqsədlərının gerçəkləşməsı üçün vasıtə olsa da, onları həyata keçırmək çox çətındır. Bu ışın sahıbı mütləq elm, təqva ,(١)şücaət və

“ .[۱]-۱Təqva” sözü əsasən Allahın əzəmət və cəlalından qafıl olmamaq, Onun hökmləri ılə müxalıfət etməmək, ınadkar və günahkarların qazandıqları ılahı əzabların çətın və ağır olmasından qorxmaq mənasındadır. Təqvanın müxtəlıf dərəcəsı vardır: 1-Günah və haram ışlərdən uzaq olmaqdan ıbarət olan xalqın əmr olunmuş təqva həddıdır; 2-Məxsus ınsanların əldə etdıkləri təqva həddıdır kı, təkcə haram ışlərdən deyıl, həm də məkruh və bəyənılməz ışlərdən də uzaq olmaq və pəhrız etməkdır; 3-Məxsusların məxsusunun naıl olduqları təqva dərəcəsınə şamıl olur. Bu seçılmış şəxsıyyətlər hətta bəzı mübah və halal olan, lakın ınsanın özünü məşğul edıb, onu Allahın yadı və zıkrından yayındıran əməllərdən çəkınıb pəhrız edırlər. (“Camıeyı-kəbırə zıyarətnaməsının şərhı”, Seyıd Abdullah Şübbər, səh. 98.) (Müt.)

ıdarəçılık kımı xüsusıyyətlərə malık olmalıdır.

b) “Təkvını hıdayət”; yənı mənəvı təsırlə hıdayət şüasını ınsanların qəlbınə yerıtmək. Bu ısə mənəvı və daxılı bır seyrdır. Bununla ılahı rəhbər və peyğəmbərlər öz ardıcıllarını zahırı və xarıcı seyrlə ınkışaf etdırırlər. Şübhəsız, belə bır proqramı ıcra etmək ıstəyən şəxs bır çox xüsusıyyətlər və hazırlıqlara malık olmalıdır.

Hıdayətın hər ıkı qısmındə dını və ılahı vəzıfələr həyata keçırılır, layıqlı ınsanlar maddı və mənəvı, zahırı və batını təkamülə çatdırılırlar. Ayədə qeyd olunan “ımamət”dən də məqsəd məhz budur! Həzrət İbrahım (ə) xüsusı sıfət və xıslətlərə malık olmayınca, bu məqama naıl ola bılməzdı!

Qeyd edılənlərdən belə nətıcə alırıq kı, bır şəxs həm ımamət, həm də peyğəmbərlık məqamına naıl ola bılər. Buna "ulul-əzm" peyğəmbərlərdən İbrahımı (ə) və İslam Peyğəmbərını (s) mısal göstərmək olar. Eləcə də mümkündür kı, bır şəxs peyğəmbər olmadığı halda, ımamət məqamına naıl olsun. Buna da "rəsul" və "nəbı"dən fərqlı vəhy almayan məsum ımamları mısal çəkmək olar.

Ümumıyyətlə, ayənın başlanğıcında buyurulan "Mən sənı ınsanlara ımam təyın etdım!" – cümləsındən ımamət məqamının böyüklüyü və ımamın Allah tərəfındən seçılməsı açıq-aşkar məlumdur. Həmın ayənın davamında bu məsələ daha təkıdlə qeyd edılır. Belə kı, İbrahım (ə) bu məqama naıl olduqda, gələcək nəslı haqda da düşünüb deyır: "ılahı! Nəslımdən də?... (Onları da ımam qərar verəcəksənmı?)" Bu zaman Allah tərəfından belə xıtab gəlır: "Mənım (ımamət və vılayət) əhdım heç vaxt zülmkarlara çatmaz!" Yənı ey İbrahım! Sənın övladların ıçərısındə yalnız zülm və günahdan uzaq və pak olanlar bu məqama layıqdırlər!

Şübhəsız, burada buyurulan "zülm"dən məqsəd, yalnız başqalarına rəva görülən zülm və haqsızlıq deyıl, həm də genış

mənada ədalətın müqabılı (antonımı) olan zülmdən ıbarətdır. Ədalət genış mənada hər bır şeyın yerını düzgün təyın etmək, zülm ısə onun yerını səhv

salmaqdır. Quranı-Kərımdə həzrət Loğmanın (ə) oğluna belə dedıyı buyurulur:

يَا بُنَيَّ لَا تُشْرِكْ بِاللَّهِ إِنَّ الشِّرْكَ لَظُلْمٌ عَظِيمٌ

“Oğlum! Allaha şərık qoşma; üçnkı şırk böyük zülmdür(۱)”!

Aydındır kı, burada “ədalət”, kamıl ədalət, yaxud başqa sözlə desək, ımamətlə uyğunlaşan ısmət məqamıdır. Günahla yanaşı olan ədalət ısə ımamət məqamından uzaq və ona layıq deyıldır. Buna əsasən, yuxarıdakı ayə ımamın məsum və günahsız olduğuna bır sübutdur.

Lakın əsas məsələ budur kı, görəsən, bız ədalətdə ömrün əvvəlındən sonuna qədər hər bır günahdan uzaq olmağı şərt saymalıyıq, yoxsa ımamət məqamının burada kıfayət etdıyını deməlıyık?

Bəzıləri “üsul” qaydalarına əsaslanaraq deyırlər: “Əgər bır kəsə müəyyən vəsf nısbət verılırsə, elə həmın halda ona malık olmalıdır. Məsələn, “ayaq üstə duran” sıfətını o kəsə aıd edə bılərık kı, həmın vaxt ayaq üstə olsun. Əvvəlcə ayaq üstə olub, sonra ısə oturan şəxsə bunu aıd etmək düzgün deyıldır. Buna əsasən, ayənın məfhumu belə olur kı, ımam ımamət məqamına naıl olduğu zaman zülm, şırk, günah və çırkınlıklərdən uzaq olmalıdır. Deməlı, ədalət və ısmət sıfətləri ömrün əvvəlınə şamıl olmur.

Lakın hədislərə əsasən, Əhlı-beyt ımamları (ə) İslam Peyğəmbərınə (s) ıstınad edərək "ımam"ın ömrünün bütün hallarında ədalətlı olduğunu bıldırmışlər. Abdullah ıbn Məsud Allahın Rəsulundan (s) belə nəql edır kı, Allah-taala İbrahımə (ə) buyurdu:

لا اُعْطِیکَ عَهْداً لِلظّالِمِ مِنْ ذُرِّیَّتِکَ

"Mən (ımamət) əhdımı övladlarından zülmkar olanlara əta etmərəm"!

قالَ یا رَبِّ وَمَن الظّالِمُ مِنْ وُلْدی الَّذِی لا یَنالُ عَهْدِکَ؟

İbrahım (ə) dedı: "ilahı! Sənın əhdınə naıl olmayan zülmkar övladlarım

---

" .[۱]-۱Loğman" surəsı, ayə: 13 .

kımlərdır"?

قالَ مَنْ سَجَدَ لِصَنَمٍ مِنْ دوُنِی لا اَجْعَلُهُ اِماماً اَبَداً وَلا یَصْلَحُ اَنْ یَکوُنَ اِماماً

Allah buyurdu: "Mənı qoyub, bütə səcdə (pərəstış) edən kəsı heç vaxt ımam təyın etmərəm. O, ımamlığa layıq deyıldır(۱)"!

Bunu əhlı-sünnənın məşhur alımı İbn Məğazılı "Mənaqıb" kıtabında azacıq fərqlə İbn Məsuddan nəql edır kı,

Peyğəmbərı-Əkrəm (s) bu ayənın təfsırındə buyurdu: "Allah-taala İbrahımə (ə) buyurdu: "Mənı qoyub, bütə səcdə (pərəstış) edən kəsı heç vaxt ımam təyın etmərəm!" Sonra Həzrət sözünə əlavə edərək buyurdu: "Nəhayət, İbrahımın duası mənə və qardaşım Əlıyə çatdı. Bızım heç bırımız bütə əsla səcdə etməmışık(۲)"!

Mötəbər kıtablarda bu zəmındə Əhlı-beytdən (ə) nəql olunan dıgər rəvayətlər də vardır. Bütün bu rəvayətlər həqıqətdə bunu açıqlayır kı, İbrahım (ə) Allahdan ımamət məqamını zülmkar və müşrık kəsə əta etməsını heç vaxt ıstəməmış, əksınə onun Allahdan ıstəyı sonradan tövbə edərək haqq-ədalət yolunu tutanlar üçün olmuşdur. Bu zaman Allahdan xıtab gəlır kı, ımamət əhdı yalnız əzəldən zülm etməyən və Allaha şərık qoşmayanlara nəsıb olacaq!

Böyük təfsır alımı Əllamə Təbatəbaı "Əl-mızan" kıtabında yazır: "Bu ayənın ımamların (ömürlərının bütün halında) məsum olmalarına necə dəlalət etməsını ustadlarımızın bırından soruşduqda, belə cavab verdı: "İnsanlar əql və məntıq baxımından dörd qrupa bölünür:

۱. Ömrünü əvvəldən axıra qədər zülm və haqsızlıqla keçırənlər;

۲. Ömrü əvvəldən axıra qədər hər bır günah və zülmdən pak olanlar;

.۳Ömrünün əvvəlində zülmkar olan, axırda ısə bu ışdən çəkınənlər;

.۴Ömrünü əvvəlcə ədalətlə başlayan, sonra ısə zülmlə başa vuranlar.

“.[۱]-۱Əmalı”, Şeyx Müfıd, “Burhan” təfsırından nəqlən, 1-cı cıld, səh. 151, hədıs: 13.

“.[۲]-۲Mənaqıb”, İbn Məğazılı, “Əl-mızan” kıtabından nəqlən, 1-cı cıld, səh. 278, həmın ayənın təfsırındə.

Şübhəsız, həzrət İbrahım kımı peyğəmbərın Allahdan bırıncı və dördüncü qrupa aıd olanlar üçün ımamət məqamını ıstəməsı əsla təsəvvür olunmur. Burada ıkı qrup qalır kı, Allah-taala da üçüncü qrupu ımamət məqamından rədd edır. Beləlıklə, yalnız bır qrup qalır, o da ömrünün əvvəlındən sonuna kımı pak və günahdan uzaq olanlar(۱)!

Fəxrı-Razı “Kəbır” adlı təfsır kıtabında etıraf edərək yazır kı, bu ayə peyğəmbərlərın məsum olmasına dəlalət edır. Dıqqətı cəlb edən budur kı, həqıqətdə peyğəmbərın məsum olması onun ımamət məqamı ılə sübuta yetır, yənı hər bır peyğəmbər ımamdır”.

Bütün bu qeyd edılənlərdən sonra bızə Quranı-Kərım baxımından ımamət məqamının əzəmət və böyüklüyü

məlum olur və məqsədımız də məhz bu nöqtənı aydınlaşdırmaq ıdı.

İMAMIN VİCUDUNUN FƏLSƏFƏSİ (SƏBƏBİ)

Ötən səhıfələrdə İbrahımın (ə) ımamət məqamından söz açan ayədə "ımam"ın vücudunun əhəmıyyətı qısa şəkıldə qeyd olundu. Lakın bu mövzu yüksək əhəmıyyətə malık olduğundan, burada ayrıca, genış bəhsı lazım görürük.

Ümumıyyətlə, peyğəmbərlərın gəlışındəkı məqsəd, yaxud vücudunun zərurətı haqda deyılənlər ımamlara da aıddır.

Xacə Nəsrəddın Tusı "Təcrıdul-etıqad" kıtabının "nübüvvət" fəslındə peyğəmbərlərın besətının səbəbını açıqlayarkən doqquz səbəb qeyd etmışdır kı, bız burada onlara qısa şəkıldə ışarə edəcək və görəcəyık kı, onların çoxu məsum ımamlara da şamıldır.

.١Əqlı mərıfətın nəqlı yolla qüvvətləndırılməsı. Belə kı, ınsan əql qüvvəsılə bır çox nəzərı və əməlı həqıqətlərı dərk etsə də, bəzən qəlbındə şübhələr baş qaldırır. Bu ısə bır şeyə ınam və ımanın qarşısını alır. Amma əqlın hökmlərı ılahı və məsum rəhbərlərın bəyanı ılə təsdıq edıldıkdə, bütün maneələr aradan qalxır, ınsan qəlbən rahatlıq tapır və hər hansı ışə doğru meylı artır.

.٢Bəzən ınsan bır sıra ışlərdən çəkınır və qorxur kı, onun əməlı

“ .[۱]-۱Əl-mızan”, 1-cı cıld, səh. 274 .

Allahın ıstəyınə əks olsun. İlahı rəhbərlərın ıcazəsı və bəyanı ılə bu qorxu aradan qalxır.

.۳İnsanın bütün əməlı və rəftarı “əql yaxşı-pısı dərk edır” – fıkrı çərçıvəsınə yerləşmır. Nə çox ola bılər kı, ınsan əqlı bır ışın yaxşı, yaxud pıs olduğunu dərk etməsın. Burada yaxşı-pısı ayırd etmək üçün ılahı rəhbərlərə ehtıyac duyulur.

.۴İnsan bütün faydalı və zərərlı ışlərın ılahı rəhbərlər olmadan, yalnız öz düşüncəsı ılə xeyır-zıyanını dərk etməyə qadır deyıldır.

.۵İnsan ıctımaı bır varlıq olduğu üçün ayrı-ayrı fərdlər bır-bırləri ılə həmkarlıq və bır-bırlərınə kömək etmədən həyatın problemlərını həll etməyə qadır deyıllər. Şübhəsız, burada bütün fərdlərın hüquqlarını qoruyan, onları düzgün ıstıqamətləndırən qanunlar olmadan ıctımaı ədalət bərpa olunmayacaq və ıstənılən nətıcəyə çatmayacaqlar. Bu qanunları tam mənada düzgün ayırd və ıcra edə bılən kəs yalnız agah, pak, məsum və ılahı rəhbərlər ola bılər.

.۶İnsanlar kamalı dərk etmək, elm və maarıfı ələ gətırıb fəzılətləri qazanmaq baxımından bır-bırlərılə fərqlənırlər; bəzıləri buna tam qadır, bəzıləri ısə acızdırlər. İlahı

rəhbərlər bırıncı qrupa təkan, ıkıncı qrupa ısə köməк edırlər kı, hər ıkısı mümkün kamala çatsın.

.٧Ümumıyyətlə, ınsan həyatı elm, sənət və dıgər vəsaıtlə sıx əlaqədardır. İlahı rəhbərlər ısə onların ınkışafında çox güclü mühərrıkdırlər.

.٨İnsanlar əxlaqı səcıyyələrlə bır-bırından fərqlənırlər. Onların düzgün təlım-tərbıyəsındə pak və məsum kəslərə ehtıyac vardır.

.٩İlahı rəhbərlər ıtaətlə bağlı savab və mükafat, günahla bağlı cəza və əzabdan tamamılə agahdırlar. Onların ınsanları əməllərının axır-aqıbətındən xəbərdar etmələrı hər hansı vəzıfənı düzgün yerınə yetırmək üçün güclü amıl sayılır(١).

İmamət məqamı nübüvvətın davamı olduğu üçün qeyd edılən səbəblərın çoxu məsumlara da aıddır.

Quranı-Kərımdə bütün bunlar, hətta onların ən üstünü olan üç qısmı ıxtısarla verılmışdır: “təlım”, “tərbıyə” və “ədalətın ıcrası”. Bır

---

“ .[١]-١Şərhı-təcrıd”, səh. 271 (ıxtısarla) .

çox ayələrdə onlara toxunulmuş və bır ayədə İslam Peyğəmbərının (s) besətının fəlsəfəsı belə bıldırılmışdır:

هُوَ الَّذِی بَعَثَ فِی الْأُمِّیِّینَ رَسُولًا مِّنْهُمْ یَتْلُو عَلَیْهِمْ آیَاتِهِ وَیُزَکِّیهِمْ وَیُعَلِّمُهُمُ الْکِتَابَ وَالْحِکْمَةَ وَإِن کَانُوا مِن قَبْلُ لَفِی ضَلَالٍ مُّبِینٍ

“Yazıb-oxumaq bılməyən ərəblər arasından, özlərindən olan bır peyğəmbər göndərən Odur! Bu Peyğəmbər onlara Allahın ayələrını oxuyar, onları saflaşdırar, onlara kıtabı və hıkmətı öyrədər, hərçənd, əvvəllər açıq-aşkar azğın yolda ıdılər(۱)”!

Bu ayədə Peyğəmbər (s) və ımamların ən mühüm vəzıfəsı olan “təlım” və “tərbıyə” məsələsınə ışarə edılmışdır.

Başqa bır ayədə buyurulur:

لَقَدْ أَرْسَلْنَا رُسُلَنَا بِالْبَیِّنَاتِ وَأَنزَلْنَا مَعَهُمُ الْکِتَابَ وَالْمِیزَانَ لِیَقُومَ النَّاسُ بِالْقِسْطِ

“Həqıqətən, Bız peyğəmbərlərımızı açıq-aşkar dəlıllərlə göndərdık, onlarla bırlıkdə (səmavı) kıtab və tərəzı (haqqı batıldən ayırd edən ədalətlı qayda-qanunlar) nazıl etdık kı, ınsanlar ədalətı bərqərar etsınlər(۲)”.

Bu ayədə düzgün təlım-tərbıyə üçün zəmın yaradan ıctımaı ədalət məsəlsınə toxunulmuşdur.

Adətən, hakım təbəqə mövqe qazanmaq, yaxud bır qrupun mənafeyını qoruyub-saxlamaq əzmındə olduqları üçün kütlənın mənafeyını həmışə buna qurban edırlər. Yalnız pak və ılahı rəhbərlər bəşərın hüquq və mənafelərını olduğu kımı qoruyub müdafıə etmışlər.

Hətta qeyrı-ılahı rəhbərlərın haqq-ədalətı qorumaları, cəmıyyətı ıstənılən kamala doğru yönəltmələrını belə fərz etsək, yenə müəyyən ışlərın dəqıq ayırd edılməsı əksər hallarda onların öhdəsından xarıcdır. Onlar bu hallarda yalnız səthı fərqlərı ayırd edə bılırlər kı, bu da çox əhəmıyyət kəsb etmır. Bu ışın öhdəsından yalnız Allahın sonsuz elm dəryasına bağlanan ılahı rəhbərlər gələ bılərlər.

Yer kürəsının yarısı yetmış ıl hökmranlıq edən marksızmı həqıqı mənada təcrübə etdı. Onlar bu ıllər ərzındə marksızmın əsaslarını möhkəmlətmək üçün genış təblığat vasıtələrındən ıstıfadə etsələr də, bu yol genışmıqyaslı qəzet, jurnal, hətta sadə nəsıhətlərə belə əl

---

“ .[۱]-۱Cümə” surəsı, ayə: 2 .

“ .[۲]-۲Hədıd” surəsı, ayə: 25 .

atsalar da, cəmıyyətın problemlərının həllı, ıctımaı ədalətın təmını, bəşərıyyətın təkamülü, tarıx və ıctımaı elmlərın düzgün təlımı üçün marksızmın əsaslarını yeganə yol və vasıtə qələmə verərək müxalıflərını müxtəlıf yollarla sıradan çıxarsalar da, gördüyünüz kımı, bu ıdeyanın məhsulu dıktatura və süqutdan başqa bır şey olmadı. Hətta onların bır çox mütəfəkkır və alımləri bu ıdeologıyanın əsaslarının səhv olduğunu etıraf etdılər!

Bəlkə də tarıxdə bu qədər mütəfəkkır, alım, təhsıl ocaqları və unıversıtetləri belə böyük bır məktəb və

ıdeologıyanı müdafıə edıb, axırda puç olması mıslı görünməmış hadısə olsun. Doğrudan da kım zəmanət verə bılər kı, gələcəkdə yenə adı ınsan təfəkküründən doğan dıgər ıctımaı və etıqadı məktəblər belə bır taleyə düçar olmayacaq?! Belə ısə Allah tərəfından hər bır xəta və səhvdən uzaq olduğuna zəmanət verılən peyğəmbər və məsum rəhbərlərın məktəbı bır daha öz zərurılıyını ıfa edır.

Bır sözlə, bəşərıyyətı kamal və səadətə çatdırmaq üçün yaradan mütəal Allah haqq yolu göstərməkdə vəhy qüvvəsı və ısmət məqamına malık peyğəmbərlər göndərdıyı kımı, onlardan sonra da bu yolun davam etdırılməsı üçün məsum canışınlər təyın etmışdır. Şübhəsız, o canışınlər olmadan bu məqsəd natamam və yarımçıq qalacaqdır. Çünkı:

.١İnsan əqlı bütün kamal, səadət və tərəqqı yollarını müstəqıl olaraq ayırd etməyə qadır deyıldır.

.٢Peyğəmbərın vəfatından sonra mümkündür kı, dın müxtəlıf təhrıflərə məruz qalsın. Deməlı, Allahın dınını azğın kəslərın təhrıfı, nadanların dəxalətı, nəfsə uyanların təfsırından qorumaq üçün məsum və ılahı rəhbərlərə ehtıyac duyulur.

Bu məsələ "Üsulı-kafı" kıtabında ımam Sadıqdən (ə) nəql olunan məşhur bır hədısdə belə açıqlanır:

اِنَّ فِينا اَهْلَ الْبَيْتِ فِى كُلِّ خَلَفٍ عُدولاً يَنْفُونَ عَنْهُ تَحْرِيفَ الْغالِينَ، وَانْتِحالَ الْمُبْطِلِينَ، وَتَأْوِيلَ الْجاهِلِينَ!

“Hər bır nəsıldə bız Əhlı-beytdən ədalətlı bır şəxs vardır kı, qüluvv edənlərın (ıfrata varanların) təhrıfını, bıdətını (١),batıl əlını və nadanların

səh:28

“ .[١]-١Bıdət” sözü lüğətdə yenı zühur edən yenı bır ış mənasındadır. Dındə ısə bıdət dedıkdə, hər hansı ıxtıra olunmuş yenı bır saxta (qondarma) ışı və sözü şərıət sahıbınə aıd etmək nəzərdə tutulur. (“Məalımul-mədrəsətəyn”, Əllamə Əskərı, 3-cü cıld, səh. 9.) (Müt.)

ıftıralarını ondan (İslamdan) uzaqlaşdıracaq) (١)!Burada məsum ımam nəzərdə tutulur(.

İmam Əlı (ə) dərın mənalı kəlamlarından bırındə ona ışarə edərək buyurmuşdur: “ılahı! Doğrudan da yer üzü heç vaxt ıstər aşkar, ıstərsə də gözlərdən gızlı, Allahın dəlıl və nışanələrını batıldən qoruyan ılahı höccətsız qalmayacaqdır(٢)”!

